UOT 37.01.

***Hicran Ehtibar qızı Verdiyeva,***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Gəncə Dövlət Universiteti*

# AZƏRBAYCANDA QADIN TƏRBİYƏSİ İLƏ BAĞLI ƏNƏNƏLƏR YENİYETMƏ QIZ ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI VASİTƏSİ KİMİ

***Хиджран Егтибар гызы Вердиева,***
*диссертант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# ТРАДИЦИИ, СВЯЗАННЫЕ С ВОСПИТАНИЕМ ЖЕНЩИН В АЗЕРБАЙДЖАНА КАК СРЕДСТВО ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ДЕВЧОНКИ

***Hijran Ehtibar Verdiyeva,***
*doctorial student in the proqramme of a Ph.D*
*Ganja State Univercity*

# TRADITIONS ASSOCIATED WITH THE EDUCATION OF WOMEN IN AZERBAIJAN AS A MEANS OF SHAPING THE PERSONALITY OF THE GIRL

**Xülasə,** Məqalədə mədəni prinsiplər və ruhi-mənəvi tərbiyə sisteminin xüsusiyyətləri açılır, müasir qadın tərbiyəsinin vəziyyəti müəyyənləşdirilir, müasir ailədə milli etiketin tətbiqinin səmərəliliyi aşkara çıxarılır.
***Açar sözlər:*** *qadın tərbiyəsi, qadın tərbiyəsi ilə bağlı ənənələr, yeniyetmə qız, yeniyetmə qız şəxsiyyəti, yeniyetmə qız şəxsiyyətinin formalaşdırılması*

**Резюме:** В статье раскрываются культурные принципы и особенности системы духовно-нравственного воспитания, определяется состояние современного женского воспитания, выявляется эффективность применения национального этикета в современной семьи.
***Ключевые слова:*** *воспитание женщины, традиции в области воспитании женщины, девочка-подросток, личность девочки-подростка, формирование личности девочки-подростка*

**Summary:** The article reveals the cultural principles and features of the system of spiritual and moral education, determines the state of modern female education, reveals the effectiveness of the use of national etiquette in the modern family.
***Keywords:*** *upbringing a woman, traditions about the field of upbringing a woman, teenage girl, the identity of a teenage girl, shaping the identity of a teenage girl*

Ailədə oğlan tərbiyəsi, qız tərbiyəsi. Təbii ki, bu zaman müəyyən səciyyəvi xüsusiyyətlər nəzərə alınmalıdır. Qızı oğlan, oğlanı qız kimi tərbiyələndirmək olmaz.

Xalqımızın özünəməxsus ailə tərbiyəsi ənənələri mövcuddur. Digər xalqlarla müqayisədə Azərbaycan ailələrinin tərbiyə üsulları fərqlidir, biz deyərdik ki, daha mükəmməl, daha ciddi və daha demokratikyönlü və humanistyönlüdür.

Belə ki, azərbaycanlı ailələrində ata-analar, ailənin digər yaşlı üzvləri mümkün olduğu qədər öz uşaqlarını zərərli vərdişlərdən uzaq tuturlar.

Ailələr çalışırlar ki, uşaqları yalan danışmasın, oğlanlar siqaret çəkməsin, spirtli içkilərə uymasın, oğurluq etməsin, qumar oynamasınlar, dalaşmasınlar, başqa insanlara zərər vurmasınlar. Ailədə ilk günlərdən tərbiyə işi düzgün qurulmalıdır ki, sonralar çətinliklər, narahatlıqlar baş verməsin.

Eyni zamanda övladları ailənin şərəfini qorusunlar, valideynlərinin nüfuzunu gözləsin-

lər, böyüklərə hörmətlə yanaşsınlar, balacaları incitməsinlər, ailədə, məktəbdə, ictimai yerlərdə nümunəvi davransınlar, nitq, danışıq, ünsiyyət və rəftar tərzlərinə fikir versinlər, vətənpərvər olsunlar, fəal həyat və vətəndaşlıq mövqeyinə yiyələnsinlər.

Haqqında bəhs etdiklərimiz böyüyən nəslin davranışında xoşagəlməz halların meydana gəlməsinə mane olur.

Uşaqların düzgün tərbiyə almasından ötrü ilk növbədə böyüklər – ata-analar onlara nümunə göstərməlidirlər. A.S. Makarenko demişkən, "Sizin öz davranışınız ən həlledici məsələdir. Elə bilməyin ki, siz uşağı yalnız onunla danışanda və ya onu öyrədəndə, yaxud ona əmr verəndə tərbiyələndirirsiniz. Siz onu öz həyatınızın hər bir anında, hətta evdə olmadığınız zaman da tərbiyə edirsiniz. Siz necə geyinirsiniz, başqa adamlarla və özgə adamlar haqqında necə danışırsınız, necə sevinir və necə kədərlənirsiniz, dostlar və düşmənlərlə necə rəftar edirsiniz, necə gülürsünüz, qəzeti necə oxuyursunuz – bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır. …Özünüzə qarşı valideyn kimi tələbkar olun, öz ailənizə bir valideyn kimi hörmət edin, hər bir addımınızı valideyn kimi nəzarət altına alın – tərbiyənin birinci və ən əsas üsulu budur!" (1, 248).

Ailədə qız tərbiyəsi xüsusilə diqqət mərkəzində dayanmalıdır. Yadda saxlamaq lazımdır ki, qız – ailənin namusu, şərəf və ləyaqəti göstəricisidir. Ailələri səciyyələndirərkən, bir çox hallarda qadının, onun tərbiyə etdiyi qızların əxlaqı, cəmiyyətdə, ailədə, məhəllədə qazandığı hörmət və nüfuza, özlərini aparmalarına uyğun olaraq həmin ailələr barədə fikir irəli sürürlər. bu mənada qızların tərbiyəsində ana nümunəsi özünəməxsus rol oynayır. Heç də təsadüfi deyilməmişdir ki: "Ana gəzən ağacı qızı budaq-budaq gəzər", "Qızı tanımaq istəyirsənsə anasını gör" atalar məsəlləri təsadüfən yaranmamışdır.

Digər xalqlarda da buna bənzər məsəllər vardır. Diqqət yetirək:

*Anaya baxıb qızı, ataya baxıb oğlu tanıyarlar (*əfqan atalar sözləri*) Qıza baxmamış, anasına bax (*yapon atalar sözləri*)

* Qızı tanımaq istəyirsənsə, gərək anasını görəsən; lap yaxından tanımaq istəyirsənsə, gərək nənəsini görəsən (*tai atalar sözləri*)

*Qızı almamış anasına bax (*Amxar atalar sözləri*).

*Arvadı yaxşı ailədən almaq lazımdır ("*Qabusnamə"dən*).

Azərbaycanda xalqımızın ailə adət-ənənələrinə hörmətlə yanaşılır. Xalqımız qıza, qadına münasibətdə daha diqqətlidir.

Xalq yazıçısı Elçinin "Bir görüşün tarixçəsi" əsərində belə fikir var: "Məmmədağagilin məhəlləsində yazılmamış bir qanun vardı: tanışbilişin arvadına tamah salmaq olmazdı; əgər biriylə oturub bir tikə çörək yemisənsə, onun arvadı sənin bacındır. Məmmədağa heç vaxt bu qanunu pozmazdı; məsələ təkcə burasında deyildi ki, bu qanunu pozmaq olmazdı. Məsələ burasında idi ki, bu yazılmamış qanun Məmmədağagilin damarından axırdı, qanına qarışmışdı" (2).

V.A. Suxomlinski də "Vətəndaşın doğulması" əsərində qadın, qız tərbiyəsinə münasibət bildirmişdir. Görkəmli pedaqoq yazırdı: "Yaxşı tərbiyə almış uşaq kollektivində qızın şüuruna tərbiyəçinin bu sözləri çatır ki, o (yəni qız), gələcək anadır, təbiət və bəşəriyyətin çoxəsrlik təcrübəsi onun üzərinə bütün insan nəsli üçün məsuliyyət qoymuşdur. Bu haqda qızlara sadə və ülviyyətlə, anlaşıqlı və ismətlə danışmaq lazımdır" (3, 74-87).

Bu iqtibasdan çıxan məntiqi nəticəyə fikir verək: 1. Qızlar öz davranışlarına, oturuşlarına diqqət yetirməli, açıq-saçıq, yüngül xasiyyət olmamalıdırlar. Bizim anlamımızda: onlar artıq hərəkətlərə yol verməməli, oğlanlarla öz aralarında psixoloji məsafə saxlamalı, namuslu olmalı, ismətlərini ər evinə qiymətli cehiz kimi aparmalıdırlar. 2. Oğlanlar, kişilər qızlara, qadınlara ciddi yanaşmalı, onları yoldan çıxarmağa çalışmamalıdırlar. Düşünməlidirlər ki, onların da bacıları, qızları vardır. Qızları kişilərin həris baxışlarından qorumaq lazımdır.

Azərbaycanda qızların tərbiyəsi üzrə çox müsbət, dəyərli tərbiyə sistemi formalaşmışdır. Həmin tərbiyə sistemi əsasında tarixən mükəmməl, təkmil, namuslu, ismətli qadın obrazı yaradılmışdır. Müasir qızlarımız həmin nümunələr əsasında tərbiyə olunmalıdırlar.

Ailədə və məktəbdə qızların tərbiyəsi işində Fərman Kərimzadənin "Çaldıran döyüşü" romanında öz ifadəsini tapmış Dəspinə xatın obrazına xas səciyyəvi keyfiyyətləri əsas götürmək mümkündür.

Fərman Kərimzadənən "Çaldıran döyüşü" romanında belə bir əhvalat təsvir olunur. Tey-

muri hökmdar Əbu Səid Alamşahbəyimi ələ almaq, ona yiyələnmək istəyir. Alamşahbəyim ona deyir:

"-Mən uzun Həsənin qızıyam. Sən nə qədər dartınsan da, sənin mənə əlin çatmaz.

-O vaxt atan səni mənə vermədi.

-Mən Şeyx Heydərin arvadıyam.

-Ondan intiqam almaq istəyirdim. Əlimə imkan indi düşüb.

-Mən namusumu, qeyrətimi yüksək tutmuşam.

Alamşahbəyim çıxış yolu axtatırdı,.. tapdı. İri qaşlı üzüyü ona anası Dəspinə xatun bağışlayıb demişdi:

-Nənən Sara xatunun yadigarıdı. Bu üzük səni dar ayaqda rüsvayçılıqdan qurtarar" (4).

Alamşahbəyim Əbu Səidə təslim olmur. Özünü zəhərləyir: "...Alamşəybəyimin xalçanın üstünə düşən sol əlindəki üzüyün qaşı açıq qalmışdı. Bu, Sara xatunun qadın isməti̇ni qorumaq üçün hədiyyəsi və son vəsiyyəti idi" (4).

Ailədə qız tərbiyəsinin bəzi səciyyəvi xüsusiyyətlərini diqqət mərkəzinə gətirək:

1. Azərbaycan bayatıların birində deyilir:

Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı?
Qız gözümün işığı,
Oğlan ürək başıdı.

Ailədə qızı gözün işığı kimi tərbiyə etmək lazımdır. Qızlar ömrü boyu ata evində yaşamır. Ailə quraraq gəlin köçür. Atalarımız təsadüfi deməmişdir: "Qız gözünü açıb deyər: Bu bizim ev deyil". Elə tərbiyə almalıdır ki, yeni ailənin çırağını yandıra bilsin, həyat yoldaşı, qayınanası, qayınatası ilə qarşılıqlı münasibətləri düzgün qura bilsin. Ona görə də atalarımız deyərdi: "Qız kəsilməmiş qarpızdır".

Bu sözlərin mənası nədir? Qızın necə bir şəxs, necə bir insan olduğunu hələ bilmək olmur. Ər evində bu üzə çıxacaq. İngilis alimi Con Milton yazdığı kimi, "Dövləti idarə etmək öz arvadını idarə etməkdən asandır" (5, 112).

2. Qız gələcək müstəqil ailə həyatına hazırlanmalıdır.

3. Qızlar gələcək uşaqlarının tərbiyəsi işinə hazırlanmalıdırlar.

4. Qızlarda gözütoxluq, nəfsini basmaq, mehribanlıq, xoşqılıqlıq, .... tərbiyə edilməlidir.

5. Qızlarda ismət, ailənin, ata-ananın, gələcək həyat yoldaşının namusunu, şərəf və ləyaqətini qorumaq hissləri aşılanmalıdır. Həzrəti Əli deyərdi: "Baxın övladlarınıza kim süd verir. Çünki uşaq onun südü ilə inkişaf edəcək. Axmaq qadını dayə tutmayın, çünki süd təbiətə, xasiyyətə üstün gəlir".

6. Qızlara belə fikir aşılanmalıdır ki, ailə həyatında gözəllik əsas deyil. Öz gözəllikləri ilə öyünməsinlər. Əsas məsələ ailəyə, həyat yoldaşına, övladına bağlılıqdır. Nəsirəddin Tusinin ibrətamiz fikirləri vardır. O, gənclərə, onların valideynlərinə xitabən yazırdı: "Qadını gözəlliyi xatirinə almaq doğru deyildir. Gözəlliklə iffət az halda bir yerdə olarlar, çünki gözəl qadına gözü düşən çox olur, ağıllarının zəifliyindən davam gətirə bilməyib gönü suya verərlər. Belə evlənmələrin aqibəti ya qeyrətsizliklə yaşayıb rüsvayçılıqla ölmək, hər iki dünyada biabır olmaqla, ya da mal-dövlət sərf edib müxtəlif tədbirlərə əl atmaq, qəm və kədərə batmaqla nəticələnər".

Bu iqtibasa niyə müraciət etdik?

Qızlar şöhrətə, mala, pula, qaş-daşa aludə olmamalıdırlar. Bunlar müvəqqəti olan maddi nemətlərdir. Bir növ gəldi-gedərdir və xoşbəxtliyi, o cümlədən ailə səadətini təmin etmir.

Ona görə də qızlarda sədaqət, vəfa kimi mühüm keyfiyyətlər formalaşdırılmalıdır.

7. Qızlarda evdarlıq qabiliyyətləri tərbiyə olunmalıdır. Onlarda evdə səliqə-sahman yaratmaq, biş-düşlə məşğul olmaq, ailəni idarə etmək vərdişləri yaradılmalıdır.

8. Qızlar gəlin, qadın, həyat yoldaşı, ana kimi çox mühüm keyfiyyətləri özlərində tərbiyələndirməlidirlər.

9. Qızlarda səbir, təmkin, hövsələ, güzəştə gedə bilmək kimi mühüm keyfiyyətlər formalaşdırılmalıdır və s. və i.a. Ailə həyatında onlar belə həqiqətlərə əməl etməlidirlər: "Kişi fəhlədir, arvad – bənna", "Kişi gətirməyi, arvad yetirməyi bacarmalıdır".

*Əbu Əli ibn Sina*nın fikridir: "Ərli arvad ağıllı, həyalı, fərasətli, dərrakəli, təmiz ürəkli və həyatsevər olmalı, şəxsi ləyaqət hissinə malik, təvazökar, təmkinli olmalı, ərini sevməli, uşaq doğmalı və onların qayğısına qalmağı bacarmalı, ərinə söz qaytarmamalı, xarakterini yaxşılaşdırmalı, ailənin var-dövlətini artırmalı, incə davranışı ilə ərinin qəlbindən qəmi-kədəri qovmalı, əgər o, dilxordursa və ya qəzəblidirsə nəvazişlə onu sakitləşdirməlidir və s." (6, 32).

10. Qızların ailə tərbiyəsi elə olmalıdır ki, onlar gələcək ailələrində nikahın uğurlu, ailənin möhkəm olması qayğısına qalsınlar. Hər xırda bir məsələni problemə çevirməsinlər. Boşanmaya yaranmış ixtilaflı vəziyyətin həllinin yeganə yolu kimi baxmasınlar. Həzrəti Məhəmməd peyğəmbər deyərdi: "Boşanma Allahı ən çox qəzəbləndirən haram əməldir".

**Problemin aktuallığı.** Azərbaycanda qadın tərbiyəsi ilə bağlı ənənələr öz aktuallığı ilə gündəmdədir. Həmin ənənələrdən bir sıra məqsədlər üçün istifadə olunur. Bu məqalədə məsələ yeniyetmə qız şəxsiyyətinin formalaşdırılması vasitəsi kimi nəzərdən keçirilir.

**Problemin yeniliyi.** Azərbaycanda qadın tərbiyəsi ilə bağlı ənənələrə yeniyetmə qız şəxsiyyətinin formalaşdırılması vasitəsi kimi yanaşılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün faydalı ol bilər.

**Ədəbiyyat:**

1. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. "Azərbaycan məktəbi" jurnalının nəşri, 1950.
2. Elçin. Bir görüşün tarixçəsi.
3. V.A. Suxomlinski. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975.
4. F. Kərimzadə. Çaldıran döyüşü (tarixi roman). Bakı, 2002.
5. Xəzinə. Bakı: Azərnəşr, 1997.
6. A.N. Abbasov, H.H. Əhmədov. Qız gəlin köçür. Bakı: Gənclik, 1992.

**E-mail:** nika.2011@mail.ru
**Redaksiyaya daxil olub:** 12.01.2018
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**, *ped.ü.fəls.dok.* **L.A. Məmmədli**